# ŞƏKƏR ÇUĞUNDURU AQROSENOZUNDA APREL XIRILDAĞI BÖCƏYİ (COLEOPTERA, SCARABAEDAE)

**Səliqə Qazi**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu,*
*seliqeqazi08@gmail.com*

Azərbaycanın şəkər çuğunduru əkilən rayonlarının tədqiqat apardığımız stasionar sahələrində Lövhəbığ böcəklər fəsiləsinin 10 cinsinə aid 11 növünə rast gəlinmişdir. Bu fəsiləyə mənsub olan növlərdən biri *Miltetrogus aeguinoctialis* növüdür (aprel xırıldağı). Stasionar sahələrdə aprel xırıldağı böcəklərinin uçuşu aprelin əvvəllərindən may ayının ortalarınadək müşahidə edilmişdir. Böcəklərə müxtəlif əkin sahələrində, bağlarda və bostanlarda rast gəlinir. Dişi fərdlər mayalandıqdan sonra torpağa 20-28 ədəd yumurta qoyur. Embrional inkişaf 3-4 həftəyədək uzana bilir. Sürfələr əsasən mayın sonu, iyunun əvvəllərində çıxmağa başlayırlar. Onlar torpağın bir neçə sm dərinliklərində müxtəlif bitkilərin, həmçinin çuğundur bitkisinin köklərini gəmirirlər. İnkişafın birinci ilində sürfələr bir dəfə qabıq dəyişərək ikinci yaş mərhələsinə keçirlər. Qışlamaya əsasən ikinci yaş mərhələsində olan sürfələr və bəzi imaqolar gedirlər. Növbəti ilin yazında imaqolarla birlikdə ikinci yaş mərhələsində olan sürfələr də aktivləşərək qidalanmağa başlayırlar. Qidalanma iyulun sonlarınadək davam edir. Avqustun əvvəllərindən pup mərhələsi başlayır. Pup mərhələsinə sentyabr ayının birinci yarısından rast gəlinir. Puplaşmaya gedən fərdlərin 12-15%-i elə həmin mərhələdə, qalanları isə pupdan çıxmış cavan böcəklər mərhələsində qışlamaya gedirlər. Göründüyü kimi, bu zərərvericilər qışlamaya müxtəlif mərhələlərdə getdiklərinə görə elə yaz mövsümündə də onların müxtəlif mərhələlərinə rast gəlmək olur. Çuğundur sahələrindən toplanmış fərdlər üzərində aparılan tədqiqatlar zamanı bu növün bir nəslinin tam inkişafının 24-26 aya başa çatdığı müəyyən edilmişdir. Belə ki, embrional inkişaf 22-28 gün, sürfələrin inkişafı 20-22 ay, pup mərhələsi 18-22 gün, imaqo mərhələsi isə 60-65 gün davam edir.

Aprel xırıldağı aqrosenoz üçün adi növ hesab olunsa da, şübhəsiz ki, kütləvi artım olarsa, təsərrüfatlara ciddi ziyan vura bilər. Odur ki, sahələrdə onun say dinamikası haqqında mütəmadi surətdə məlumatlar toplanılmalı və nəzarətdə saxlanılmalıdır.